**UNEP Azərbaycanın tullantıların təkrar emalı istiqamətində gördüyü işlərə dəstək verəcək**

UNEP Azərbaycanın tullantıların təkrar emalı və yenidən istifadəsi istiqamətində gördüyü işlərə lazımi dəstəyi verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT Baş katibinin müavini və UNEP-in icraçı direktoru İnger Andersen COP29-la bağlı keçirilən brifinqdə deyib.

O qeyd edib ki, Azərbaycan biomüxtəlifliyin qorunması istiqamətində də müxtəlif işlər görür: "Xəzər dənizinin səviyyəsinin azalması məsələsi müzakirə edilib. Düşünürəm ki, bütün istiqamətlərdə qarşılıqlı əlaqələrimiz uğurla davam edəcək".

**AZƏRTAC**
**2024, 27 iyun**